**Muxtar AUEZOV**

*Qazaxıstanın Xalq yazıçısı, akademik*

## YOLUN AÇIQ OLSUN!

Yazıçı dostlarım Moskvaya qırğız sənətinin və ədəbiyyatının ongünlüyünə yeni ədəbiyyat əsərləri gətirmişdilər. Bunların arasında gənc yazıçı Çingiz Aytmatovun "Cəmilə" adlı hekayəsi xüsusilə diqqətimi çəkdi. Bu hekayəni oxuduqca, "Literaturnaya qazeta"nın öz səhifələrində ədəbiyyat dünyasına yeni qədəm basan gənclərə nəsihət edən bizim kimi böyüklərin yazılarına yer ayırmasını xatırladım.

"Cəmilə" Çingiz Aytmatovun ilk əsəri deyildir. Fəqət yenə də o, mənim üçün gənc bir yazıçıdır. Məncə, "Cəmilə" ilə özünəməxsus qabiliyyətini göstərən Aytmatovun bu əsərində anlatma gücü ilə yaradıcılığının yüksək zirvəsinə çatdığı aydın görünür. Aytmatovun bəhs etdiyimiz özünəxas cəhətinin sirri nədir? Doğrusunu desəm, Çingiz Aytmatovun qırğız ədəbiyyatına bir yenilik olaraq gətirdiyi ən önəmli xüsusiyyəti insan davranışlarını və insan münasibətlərini özgə birisi kimi deyil, onları tam mənasıyla anlayan, başa düşən, bir sözlə, son dərəcə təbii, canlı bir şəkildə verməsidir.

Çingiz Aytmatovun bu hekayəsi psixoloji ayrıntılarla, üzüntüsüz, yamaqsız deyimlərlə və təbii gözəlliklərlə zəngindir. Qəhrəmanlarının təsviri son dərəcə zərif, ölçülü, qısa, həm də sadə bir dillə verilmişdir. Bu xüsusiyyət qırğız ədəbiyyatı üçün yenidir. "Cəmilə"ni oxuyanlar içindən çıxdığı xalqın adət-ənənələrindən qopmayan güclü bir müəlliflə tanış olacaqlar, xalqını tanıyan, onların icində yaşadığı həyatın sıxıntılarını yaxından görən, duyan, insan xarakterlərini çözməkdə mahir olan gənc bir qələm sahibi – Çingiz Aytmatovu tanıyacaqlar. Milli ədəbiyyat dediyimiz də məhz budur! Yaşadığımız həyatın gerçəkliklərini, içindən çıxdığı xalqın adət-ənənələrini ilk öncə duyan, danışan, nəhayət, sonunda yazıya köçürən qələm ustaları sayəsində məhz milli ədəbiyyat yetişir. Milli dəyərlərin, motivlərin işləndiyi ədəbi əsərlərdə bu əsərlərin yazarları öz şəxsi qabiliyyətlərini, istedadlarını ortaya qoyaraq digər məsləkdaşlarından fərqli görünürlər. Əslində, "Cəmilə"də hər kəsin gündəlik hə-

yatda qarşılaşa biləcəyi zəngin olmayan bir hadisələr zənciri var. Hekayənin qəhrəmanları da böyük sarsıntılar, həyəcanlar keçirmirlər. Amma buna baxmayaraq, "Cəmilə"nin oxucunu həyəcanlandıran və əsla ağlından çıxmayacaq olan qəribə bir xüsusiyyəti var.

Tədricən böyüdülərək tərif edilən Cəmilə ilə Daniyarın məhəbbəti kənardan sadə bir duyğusallıqla görünməsinə baxmayaraq, hekayəni oxuyanlar qəlblərindəki, ruhlarındakı gözəllikləri, eşqlərindəki ehtirası və bu eşqin daşıdığı simvolik mənanı hiss edirlər.

Nə yaxşı ki, Cəmilə və Daniyar əməkçi sinfindən olan insanlardır. Bu hekayədə ən çox diqqətimi çəkən obraz isə bütün bunları bizə söyləyən 13 yaşlı bir yeniyetmədir. O özünü tanımağa çalışan, iç dünyasını anlamaq istəyən, son dərəcə zəngin və gözəl bir qəlbin sahibidir. Babalarından miras qalan əxlaq anlayışını bir kənara ataraq, çiyinlərindən qalxan ağır yükün altında açıqürəkli bir dəliqanlının gerçək simasını görürük. Bax, bu gənc Daniyar və Cəmiləni qüsursuz bir şəkildə başa düşür və onların yaşadıqlarından özü də həyəcanlanır.

Bu hekayədə anladılan, təsvir edilən hadisələrin, obrazların həyat görüntülərinin açıqlığında oxucunun xəyal və düşüncələrinin, təfəkkürün oyanmasına səbəb olacaq güclü çox şey var. Məncə, əsl lirik əsər bu cür olmalıdır. İnanıram ki, Aytmatov daha yaxşı əsərlər ortaya qoyacaqdır. Bəlkə də digər məsləkdaşlarının ədəbiyyatın roman janrına meyil göstərmələrindən dolayı irəliləyə bilməyən hekayə janrında qazandığı bu uğur həmin boşluğu dolduracaqdır. Təəssüf ki, təkcə qırğız ədəbiyyatında deyil, bütün Orta Asiya ədəbiyyatında nəsrin qısa janrları keyfiyyət və məzmun baxımından bu günə qədər dolğun bir səviyyəyə çata bilməmişdir.

Hekayəçiliyin başlıca meyarlarını və özəlliklərini öyrənmək, özününküləşdirmək və bu əsaslar daxilində yazmaq bizim yazıçılarımızın çoxu üçün hələ də böyük bir problemdir. Çingiz Aytmatovun nəsrin bu formasında yaratdığı əsərlərində həyatda yaşadığı ağrı-acılarını da açıqca görürük.

Çingiz Aytmatovun istedadına yaxından bələd olduğum üçün yuxarıda söylədiyim sözlərdən sonra söyləyəcək tək bir cümlə qalır: yolun açıq olsun!





**Mukhtar Auezov**

**GOOD LUCK!**

**SUMMARY**

Outstanding writer, playwright of Kazakhstan, Mukhtar Auezov was one of the writers who supported Chingiz Aitmatov in the 50s of the XX century. After reading the story "Jamila" he wrote the article entitled "Good luck" in the newspaper "Literaturnaya Gazeta" (Literary Newspaper). Chingiz Aitmatov also considered Mukhtar Auezov as his teacher.

**Мухтар Ауэзов**

**В ДОБРЫЙ ПУТЬ!**

**РЕЗЮМЕ**

Выдающийся писатель и драматург Казахстана Мухтар Ауэзов был одним из тех литераторов, кто активно способствовал приходу в литературу Чингиза Айтматова, делавшего первые шаги в 50-е годы XX века. После прочтения повести «Джамиля» М.Ауэзов написал статью в «Литературную газету» под названием «В добрый путь». В свою очередь Чингиз Айтматов считал Мухтара Ауэзова своим учителем.